# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin növlərinin müəyyən edilməsi barədə" 2001-ci il 23 may tarixli 98 nömrəli, "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2005-ci il 26 dekabr tarixli 241 nömrəli, "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli və "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 5 fevral tarixli 37 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 may tarixli 98 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 348; 2004, № 9, maddə 747; 2005, № 12, maddə 1244; 2006, № 9, maddə 819; 2007, № 2, maddə 185; 2008, № 8, maddə 780; 2009, № 10, maddə 857; 2017, № 9, maddə 1739, № 12 (II kitab), maddə 2549) ilə təsdiq edilmiş "Uşaqlar üçün valideynlərinin aliment tutulan, manat və xarici valyuta

ilə aldıqları əmək haqqının və (və ya) başqa gəlirlərinin Növləri"nin 1.2-ci bəndinin üçüncü abzasında "əmək xəsarəti" sözləri "bədbəxt hadisələr və peşə xəstəlikləri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 26 dekabr tarixli 241 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1240; 2008, № 2, maddə 130; 2020, № 4, maddə 481) ilə təsdiq edilmiş "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin registrinin yaradılması və aparılması Qaydası"nın 2-ci hissəsinə "əlillik," sözündən sonra "o cümlədən 18 yaşınadək" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1225; 2016, № 7, maddə 1343, № 11, maddə 1977; 2017, № 12 (II kitab), maddə 2552; 2018, № 2, maddə 354, № 12 (II kitab), maddə 2730; 2019, № 5, maddə 983, № 7, maddələr 1318, 1330; 2020, № 5, maddə 633) ilə təsdiq edilmiş "Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbənddə "qocalar və əlil evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evləri" sözləri "ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

3.2. 3.2-ci və 4.4-cü bəndlərdə "müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl AES qəzası nəticəsində I və II qrup əlil olmuş" sözləri "müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl AES qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

3.3. 4.7-ci bənddə "və ya" sözləri ", o cümlədən" sözləri ilə əvəz edilsin;

3.4. 7.13.1-ci yarımbəndə "yaşa," sözündən sonra "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri əlavə edilsin;

3.5. həmin Qaydalara 7 nömrəli əlavə - "Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı" üzrə:

3.5.1. 2.5-ci bəndə "əlilliyə" sözündən əvvəl "18 yaşından yuxarı əlilliyi olan şəxslərə" sözləri əlavə edilsin;

3.5.2. 2.11-ci bənddə “qrup əlil olmuş” sözləri “dərəcə əlilliyi müəyyən edilmiş” sözləri ilə əvəz edilsin;

3.5.3. 2.19-cu bənddə (hər iki halda) “əmək xəsarəti” sözləri “istehsalatda bədbəxt hadisələr” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379, № 7, maddə 1342, № 11, maddələr 1965, 1976, № 12, maddə 2239; 2018, № 8, maddələr 1793, 1795, № 12 (II kitab), maddə 2730; 2019, № 1, maddə 165, № 3, maddə 532, № 7, maddələr 1318, 1334) ilə təsdiq edilmiş “Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları”nın 3.6.1-ci yarımbəndində “qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində” sözləri “ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 8 oktyabr 2020-ci il

№ 381